# Uşaqlığının enerjisindən qidalanan adam

## Oktay Mir-Qasım: "Xoşbəxtlik nə komfortla, nə də adamın geyiminin keyfiyyəti ilə ölçülür"

**"Son filmimdəki qəhrəmanın adı Günterdir. Günter almandır, Azərbaycanda doğulub, 1941-ci ildə buradakı almanlarla birlikdə sürgün olunub. Günter filmdə belə bir söz deyir: "Mənim həyatım çox ağır olub. Hətta bunu başqa balaca uşaqlara söyləsəm, qorxarlar. Böyük əziyyətlər çəkmişəm. Amma həyatımın əvvəli mənim üçün bir nağıldır, çox xoşbəxt keçib. Akkumulyator hələ boşalmayıb, uşaqlığımın səadət enerjisi o qədər güclü olub ki, buna görə indi də xoşbəxtəm".**

Qəhrəmanımız öz hisslərini filmdə Günterin dilindən ifadə edib. Deyir, həyat o qədər də problemsiz, əziyyətsiz, getdiyimiz yol isə çox hamar deyil: "Amma uşaqlıq dövrünə aid istəsəm də, heç bir ağır hadisə, səhifə, xatirə yadıma sala bilmirəm".

Kinorejissor, ssenarist, Azərbaycanın xalq artisti Oktay Mir-Qasımla (Mirqasımov) onun doğulduğu, boya-başa çatdığı, uşaqlığının, şıltaqlığının keçdiyi mənzildə - Sahil metrostansiyasının yaxınlığındakı binada görüşdük. Mənzilinin divarlarındakı rəsmlər, kamotun üzərinə düzülən diplomlar, tələbəliyindən bu yana müxtəlif müsabiqələrdə qazanılan mükafatlar bizi keçmişə apardı...

### QONŞULUQDAKI MƏŞHURLAR

1943-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının ilk prezidenti, Azərbaycanın ilk tibb elmləri doktoru, ilk azərbaycanlı alim-cərrah, SSRİ Ali Sovetinin deputatı Mirəsədulla Mir Qasımovun və ictimai xadim, filologiya elmləri namizədi, publisist Ceyran xanımın ailəsində dünyaya göz açıb.

Məmməd Səid Ordubadi, Mirzə İbrahimov, Bülbül, Səməd Vurğun kimi dahilərlə qonşuluqda yaşayıb. Balaca vaxtı evlərinin pəncərəsindən bayıra baxmağı sevən qəhrəmanımız kimləri görməyib... Yazıçılar İttifaqının yaxınlığında yaşadıqlarından buraya gedib-gələn yazıçıları, alimləri pəncərələrindən müşahidə etməyi xoşlayırmış. Pəncərədən gördükləri mənzərə indiki kimi gözlərinin qabağındadır. Deyir, o vaxt ziyalılar bir-birinə salam verəndə, şlyapalarını çıxararaq baş əyib təzim edər, xanımların əllərini öpərdilər.

Qonşuluqda yaşayan Bülbül tez-tez onlara gələr, atası Mirəsədulla müəllimlə oturub saatlarla söhbət edərdilər. Elə Bülbülün sayəsində Opera və Balet Teatrında "Koroğlu" operasına 10-15 dəfə baxıb: "Bülbül öz uşaqları ilə birlikdə bizi aparıb lojada otuzdurardı. Onun canlı atın belində səhnəyə çıxması çox xoşumuza gələrdi. Belə bir qəhrəmanı doğma saydığımız Bülbül əminin canlandırması bizə xüsusi zövq verirdi".



Uşaqlığından danışanda nənəsi Seyidxanımın gözünün qarşısına gəldiyini deyir: "O, şəriət qaydaları ilə yaşayan ənənəvi bir müsəlman xanımı idi. Onun üçün gündə beş dəfə namaz qılmaq, sadəcə, nizam-intizama bağlı olduğunu yox, dərin mənəvi təmizliyinin, səmimiyyətinin və islamın ideyalarını dərindən dərk etməsinin göstəricisi idi. Odur ki, mən 5-6 yaşında uşaq olsam da, o illəri, nənəmin həyatını müşahidə etməyimi özüm üçün çox vacib məktəb sayıram. Bilirsiniz, təbii ki, uşaqlıq illərimin "arxivi"ndən saysız-hesabsız hadisələr gətirmək olar: məhəllədə davalar, müxtəlif şıltaqlıqlar, böyüklərimiz tərəfindən vəhşilik sayılan oyunlar... Bir-birimizi döyürdük də, söyürdük də... Bir dəfə, yadımdadır, çox hündür bir ağaca dırmaşdım. Onun zirvəsində məni maraqlandıran quş yuvası var idi. İstəyirdim ki, oradan civ-civ səsi çıxardanları görüm. Təbii ki, yıxıldım, gözüm zədələndi. İndiyə qədər sağ gözüm bir az zəifdir. Amma bunlar nədir axı? Hafizəmiz bu cür şeyləri nə qədər içimizdə yaşatsa da, onlar böyük səadət mənbəyi olan uşaqlıq, gənclik illərimizi qara boya ilə rəngləyə bilməz".

### BEŞ QARDAŞIN SONBEŞİYİ

Qeyd edək ki, O.Mirqasımov beş qardaşın sonbeşiyidir. Böyük qardaşı ilə arasında 21 il fərq var. Qəhrəmanımız dünyaya gələndə qardaşı Böyük Vətən Müharibəsində ön cəbhədə vuruşurmuş: "Qardaşıma çağırış gələndə anam atamdan xahiş etdi ki, get kişidən (Mircəfər Bağırovu nəzərdə tuturdu - O.M.) xahiş elə, oğlumuzu əsgər aparmasınlar. Əgər atam ağız açsaydı, Bağırov sakitcə deyəcəkdi ki, sənin vətən qarşısında xidmətlərin çoxdur, get, arxayın otur, oğlunu hərbi xidmətə aparmayacağıq. Amma atam heç vaxt xahişə getməyəcəyini dedi. Bu, onun əqidəsi idi. Qardaşım Berlinə qədər getdi və sağ-salamat qayıtdı. O, bizim ailədə qəhrəman idi. Biz onun ordenləri ilə oynayırdıq. Hər yerdə başı dik gəzirdik ki, qardaşımız faşistlərlə vuruşub, qəhrəmandır, paqonu da var. Onun hərbi papağını özümə götürmüşdüm. "Pilotka" deyilən bu papağı yastığımın altında saxlayırdım. Gecələr durub baxırdım ki, görüm kimsə götürməyib. Papağı başıma qoyanda nə gözlərim, nə burnum, nə də qulaqlarım görünürdü. Amma uzun zaman məktəbə bu papaqla getdim. İstəyirdim ki, hamı mənim qardaşımın qəhrəman olduğunu bilsin".

### "SƏHƏRƏ KİMİ ÇƏKİLİŞ MEYDANÇASINDA QALDIM"

Böyük qardaşı cərrah, ikinci qardaşı heykəltəraş, üçüncüsü neft-maşınqayırma üzrə mühəndis, dördüncüsü nəzəriyyəçi fizik olub. Anasının isə övladlarının peşə seçimi ilə bağlı xüsusi arzusu olub: "Anam hərəyə öz istədiyi peşəni yazmışdı, amma hər kəs öz istədiyini etdi. Elə atam da hər zaman deyirdi ki, adama peşə təyin etmək və həyat yoldaşı seçmək heç də düzgün deyil. Yer üzündə yaşayan hər bir insanın seçim, öz əqidəsilə yolunu müəyyən etmək hüququ var. Anamın cədvəlində isə mütləq birimiz musiqiçi olmalı idik. Böyük qardaşlarım onun arzusunu reallaşdırmadığına görə bu vəzifənin öhdəsindən gəlmək sonbeşik kimi mənim boynuma düşürdü. Mən onun son ümidi idim. Anam məni indiki Bülbül adına Musiqi Məktəbində qoydu. 8 il məni güclə musiqi məktəbində saxladı. Musiqi duyumum heç də pis deyildi: hətta musiqini həmişə sevmişəm, indi də ondan böyük zövq alıram. Amma bizim ailədə atam və biz qardaşlar təzyiqə dözmürük. Əgər təzyiq olursa, o işi etmirik. Könüllü nəsə etmək istəyiriksə, çox çalışqan, mübariz və məhsuldar oluruq. Buna görə anamın arzusunu reallaşdıra bilməzdim".

Həmsöhbətimiz idmanla da məşğul olub: "Tennisə gedir, velosiped sürürdüm. 15 yaşım olanda evimizdən Binəyə, Sumqayıta, Şüvəlana qədər velosipedlə gedib qayıdırdım. Musiqi məktəbinin 8-ci sinfini bitirdim, yazıda atam rəhmətə getdi. Anam daha mənim musiqiçi olmağıma diqqətli ola bilmədi. Dedi ki, nə istəyirsən elə. Mən də sənədlərimi musiqi məktəbindən götürüb adi məktəbə keçdim".

Küçədə gedən çəkiliş onu kino sahəsinə yönləndirir: "Bir dəfə küçədə çəkiliş getdiyini gördüm və hər şeyi unutdum. Səhərə qədər qalıb çəkiliş meydançasına tamaşa etdim. Evdəkilər dəhşətli dərəcədə nigaran qalmışdı, səhərə kimi heç kim yatmamışdı. Beləcə, kino aləmi məni çox cəlb etdi. Boş vaxtlarım kinoteatrda keçirdi. Elə 10-cu sinifdə oxuyanda Kinostudiyada işə düzəldim. Əvvəlcə fəhlə, texniki işçi kimi işlədim, ondan sonra nəhayət bir arzuma çatdım - rejissor köməkçisi oldum".



### "TƏQAÜD ALDIĞIMIZ GÜN RESTORANDA PİTİ YEYƏRDİK"

Bir müddət işləyib tələb olunan iş stajını toplayandan sonra sənədlərini Moskva Kinematoqrafiya İnstitutuna verir. Birinci və ikinci il "kəsilir". Üçüncü dəfə qəbul olur: "Tələbə olarkən Azərbaycana tətilə gələndə əvvəlcə qısametrajlı filmlər çəkməyə başladım. Hətta filmlərim başa çatmayanda instituta məktub göndərib xahiş edirdilər ki, filmi bitirmək üçün mənə möhlət versinlər".

Ailənin imkanı o qədər də yaxşı olmadığından Moskvada kirayədə deyil, yataqxanada qalır: "Amma kitab almağa, konsertlərə, tamaşalara getməyə pulum olardı. Hətta təqaüd aldığımız gün yığışıb Moskvadakı "Bakı" restoranına gedər, piti yeyərdik. O biri günlər isə yataqxanada növbə ilə yemək bişirər, otağımızı yığışdırardıq. Ən çox bişirdiyimiz yemək kartof qızartması idi. Kartofun kilosunu 10 qəpiyə alır, günəbaxan yağında qızardıb ləzzətlə qara çörəklə, kefirlə yeyirdik. Amma həyatımız o qədər dolğun və maraqlı keçirdi ki, güzəranımızdan gileylənməyə bir səbəb belə görmürdük".

O.Mir-Qasımın fikrincə, xoşbəxtlik nə komfortla, nə də adamın geyiminin keyfiyyəti ilə ölçülür: "Aldığım tərbiyə elədir ki, bizdə heç bir zaman kimdənsə maddiyyatla seçilmək, üstün görünmək ayıb sayılırdı. Atam çox ağır yol keçib, səhra cərrahı kimi iki dünya müharibəsində iştirak edib. Əziyyətlə sıfırdan zirvəyə qalxıb, amma həmişə sadəliyini qoruyub. Atamın sayəsində beş qardaş bağımızda əkinçi kimi də işləmişik, həmişə əlimiz qabarlı olub".

### "DÜŞÜNDÜM Kİ, AZƏRBAYCANDAN GƏLƏN OQTAY BİRİNCİ YERİ TUTDU"

Sonda həmsöhbətimizin gənclərimizlə bağlı fikirlərini aldıq. İndiki gənclər barədə bir az nigarançılığı var: "Onlardan narazı olduğumu deyə bilmərəm, çünki bizim gələcəyimiz, ümidimizdir. Mən nigaran ola, onlardan nəsə uma bilərəm. İstərdim, daha da maraqlı, bilikli olsunlar, qabağa getmək istəsinlər, bir-biri ilə yaxşı mənada rəqabət aparsınlar. Bunlar mənim üçün acı həqiqətdir ki, bizim dövrümüzdə biz daha çox öz adımızı və millətimizin adını qaldırmağa çalışırdıq. Oxuduğum ali məktəbdə dünyanın demək olar, bütün ölkələrindən tələbələr var idi. Özümü tərifləmək üçün demirəm. 1965-ci ildə Sovetlər üzrə tələbə kinematoqrafçılar arasında keçirilən müsabiqədə filmim birinci yer tutdu. Bu yerə layiq görüləndə ağlıma ilk növbədə gəlmədi ki, mən Oktay birinci yer tutmuşam. Düşündüm ki, Azərbaycandan gələn Oktay birinci yeri tutdu. İnstituta moskvalı gənclər bizə bir az başqa cür, hardasa yuxarıdan aşağı baxırdılar. Amma mən birinci yerə çıxanda artıq o baxışlar dəyişdi. Bu mükafatı alandan sonra özümə arxayın oldum, öz yerimi təsdiqlədim və kimdənsə geridə qalmaqdan qorxmadım. O zaman çox çətin rəqabətdə irəliyə getməyi birinci məsələ kimi görürdük. Amma tələbələrimə baxıram, onlarda belə bir şey yoxdur. Bəlkə onlar "Lada" deyil, "Mersedes" sürməklə özlərini təsdiqləyirlər. Amma biz belə şeylərə fikir vermirdik. Valideynlərimiz bizim arxamızca maşın göndərmirdilər. Halbuki qapımızda bir deyil, bir neçə maşın durardı. Amma yaxşı çıxmaz, cəmiyyətdə ayrı-seçkilik düşər deyirdilər bizə... Biz o vaxt özümüzü başqa formada, iradəmizlə, elmdə, sənətdə, idmanda göstərdiyimiz üstünlüyümüzlə, rəqabətdə qələbəmizlə, vətənə daha faydalı xidmət etməyimizlə təsdiqləməyə çalışırdıq. İstərdim, indiki gənclərimiz də belə olsun".

**Lalə MUSAQIZI**